**Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:[1]

***Komissiyanın sədri***[2]

*Azərbaycan Respublikasının energetika naziri*

***Komissiyanın üzvləri:***

*Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini*
*Azərbaycan Respublikası xarici işlər nazirinin müavini*
*Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini*
*Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası mədəniyyət ~~və turizm~~ nazirinin müavini*
*Azərbaycan Respublikası təhsil nazirinin müavini*
*Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini*[3]
*Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti*
*Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Baş direktoru.*

2. "Azərbaycan Respublikasının Ukrayna Respublikası ilə iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 20 avqust tarixli 876 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, 8, maddə 531):

2.1. adında "Azərbaycan Respublikasının Ukrayna Respublikası ilə" sözləri "Azərbaycan Respublikası ilə Ukrayna arasında" sözləri ilə əvəz edilsin;

2.2. preambulasında, 1-ci bəndində, 2-ci bəndinin üçüncü abzasında və 4-cü bəndində "Ukrayna Respublikası" sözləri "Ukrayna" sözləri ilə əvəz edilsin;

2.3. 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 avqust 2006-cı il
1640

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 22 iyul 2009-cu il tarixli 412 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ( **"Azərbaycan" qəzeti 29 iyul 2009-cu il, 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 589**)
2. 13 sentyabr 2010-cu il tarixli **325** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 09, maddə 773)**
3. 8 fevral 2012-ci il tarixli **2021** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 12 fevral 2012-ci il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 129**)
4. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
5. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**)
6. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
7. 12 yanvar 2018-ci il tarixli **3578** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, maddə 79**)
8. 5 mart 2018-ci il tarixli **3753** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 6 mart 2018-ci il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 478**)
9. 29 yanvar 2021-ci il tarixli **2461** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 30 yanvar 2021-ci il, 21**)

-

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 22 iyul 2009-cu il tarixli 412 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ( **"Azərbaycan" qəzeti 29 iyul 2009-cu il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 589**) ilə 1-ci bəndində "**Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini**" sözləri "**Niyazi Səfərov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini** " sözləri ilə, "**Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının regionlararası iqtisadi əlaqələr şöbəsinin müdiri" (məsul katib)** sözləri "**Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri (məsul katib)**" sözləri ilə əvəz edilmişdir.

8 fevral 2012-ci il tarixli **2021** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 12 fevral 2012-ci il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 129**) ilə 1-ci hissəsində "**İsgəndər İsgəndərov - Azərbaycan Respublikasının təhsil nazirinin müavini**" sözləri "**Qulu Novruzov - Azərbaycan Respublikasının təhsil nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir və "**Əsgər Abdullayev - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini** " sözlərindən sonra "**Qüdrət Qurbanov - Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının rəisi**" sözləri əlavə edilmişdir.

10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**) ilə 1-ci hissəsində "**sənaye və energetika naziri** " sözləri "**energetika naziri**" sözləri ilə əvəz edilmişdir.

27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**iqtisadi inkişaf**" sözləri "**iqtisadiyyat və sənaye**" sözləri ilə əvəz edilmişdir.

12 yanvar 2018-ci il tarixli **3578** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, maddə 79**) ilə 1-ci hissədə "**Natiq Əliyev - Azərbaycan Respublikasının energetika naziri** " sözləri "**Natiq Abbasov - Azərbaycan Respublikası energetika nazirinin müavini**" sözləri ilə, "**Yavər Camalov - Azərbaycan Respublikasının müdafiə sənayesi naziri** " sözləri "**Tofiq Rəfiyev - Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini** " sözləri ilə, "**Qulu Novruzov - Azərbaycan Respublikasının təhsil nazirinin müavini**" sözləri "**Firudin Qurbanov - Azərbaycan Respublikası təhsil nazirinin müavini** " sözləri ilə, "**Eynulla Mədətli - Azərbaycan Respublikasının Ukraynadakı Fövqəladə və Səlahiyyətli Səfiri**" sözləri "**Azər Xudiyev - Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri**" sözləri ilə və "**Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri (məsul katib)"** sözləri "**Ağadayı Ağayev - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının beynəlxalq əlaqələr şöbəsinin müdiri (Komissiyanın məsul katibi)"** sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

12 yanvar 2018-ci il tarixli **3578** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, maddə 79**) ilə 1-ci hissədən "**Musa Pənahov - Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini** " sözləri çıxarılmışdır.

13 sentyabr 2010-cu il tarixli **325** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 09, maddə 773) ilə** 1-ci bəndində "**Tələt Əliyev**" sözləri "**Eynulla Mədətli**" sözləri ilə əvəz edilmişdir.

12 yanvar 2018-ci il tarixli **3578** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, maddə 79**) ilə 1-ci hissədə "**Elşad Nəsirov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse- prezidenti** " sözlərindən sonra "**Taleh Ziyadov - "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Baş direktoru** " sözləri əlavə edilmişdir.

[2] 5 mart 2018-ci il tarixli **3753** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 6 mart 2018-ci il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 478**) ilə 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~**Komissiyanın sədri**~~

~~Yaqub **Eyyubov**~~ — ~~Azərbaycan Respublikası Baş nazirinin birinci müavini~~

~~**Komissiyanın üzvləri:**~~

~~*Natiq **Abbasov***~~ — ~~*Azərbaycan Respublikası energetika nazirinin müavini*~~

~~*Tofiq **Rəfiyev***~~ — ~~*Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini*~~

~~Xələf **Xələfov**~~ — ~~Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini~~

~~Orucəli **Hacıyev**~~ — ~~Azərbaycan Respublikasının fövqəladə hallar nazirinin müavini~~

~~Niyazi **Səfərov**~~ — ~~Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini~~

~~Musa **Pənahov**~~ — ~~Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini~~

~~Ədalət **Vəliyev**~~ — ~~Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini~~

~~*Firudin **Qurbanov***~~ — ~~*Azərbaycan Respublikası təhsil nazirinin müavini*~~

~~Əsgər **Abdullayev**~~ — ~~Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini~~

~~Qüdrət **Qurbanov**~~ — ~~Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının rəisi~~

~~*Azər **Xudiyev***~~ — ~~*Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri*~~

~~Elşad **Nəsirov**~~ — ~~Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse- prezidenti~~

~~*Taleh **Ziyadov***~~ — ~~*"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Baş direktoru*~~

~~*Ağadayı **Ağayev***~~ — ~~*Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının beynəlxalq əlaqələr şöbəsinin müdiri (Komissiyanın məsul katibi)*~~

[3] 29 yanvar 2021-ci il tarixli **2461** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 30 yanvar 2021-ci il, 21**) ilə 1-ci hissəsindən "**və turizm**" sözləri çıxarılsın və həmin hissəyə "**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini** " sözlərindən sonra "**Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini** " sözləri əlavə edilmişdir.